“Azərinşaatservis” MMC
Azərbaycan, Bakı, AZ 1108, Dərnəgül qəs., 11-ci Dağlıq k., 3105
**Tel.:** (+994 12) 447 70 03 (04) **Faks:** (+994 12) 565 04 54
www.azerinsaat.com

**PRES RELİZ**

# “Azərinşaatservis” MMC Gürcüstanda keçirilən tenderde qalib gələn tərəf oldu.

*“Azərinşaatservis” MMC*
*Bakı, Azərbaycan*
*2009/01/26*

Öz fəaliyyətini ölkə sərhədləri daxilində məhdudlaşdırmayan “Azərinşaatservis” MMC 26 yanvar 2009-cu il tarixində Gürcüstanın paytaxtı Tbilsi şəhərində “Sulda-Kartsaxi-Türkiyə sərhədi avtomobil yolunun 16 km hissəsinin rehabilitasiyası layihəsi”nin icrası üçün elan olunmuş tenderdə qalib gəlib.

“Minilliyin çağırışı – Gürcüstan” Fondunun sifarişi və Minilliyin Çağırışı Korporasiyasının maliyyə dəstəyi ilə icra ediləcək olan “Sulda-Kartsaxi-Türkiyə sərhədi avtomobil yolunun 16 km hissəsinin rehabilitasiyası layihəsi”nin icrası üçün elan olunmuş tenderdə Azərbaycan şirkəti olan “Azərinşaatservis” MMC ilə yanaşı İsrail, Türkiyə, Almanya və yerli Gürcüstan şirkətləri də iştirak edib. Samtsxe-Cavaxetiya və Kvemo Kartli regionunun yol-nəqliyyat şəbəkəsinin bərpasını nəzərdə tutan “Samtsxe-Cavaxetiya Yolunun Rehabilitasiyası Layihəsi” çərçivəsində həyata keçiriləcək olan bu layihənin ümumi dəyəri 8,4 mln. ABŞ dolları olaraq nəzərdə tutulur.

Qeyd etmək lazımdır ki bu, “Azərinşaatservis”in Gürcüstan ərazisində həyata keçirəcəyi ikinci ləyihədir. Şirkət hazırda Gürcüstan Respublikası İqtisadi İnkişaf Nazirliyinin sifarışı ilə Bakı-Tbilisi-Qars dəmiryolu layihəsi çərçivəsində “Axalkalaki-Karsaxi-Türkiyə sərhədi dəmiryolunun yenidənqurulması layihəsi”ni də icra edir.

Yaxın aylarda “Sulda-Kartsaxi-Türkiyə sərhəddi avtomobil yolunun 16 km hissəsinin rehabilitasiyası layihəsi”nin icrası üçün müqavilənin bağlanması gözlənilir.

*2003-cü ildə qurulan “Azərinşaatservis” MMC Azərbaycanda və Qafqaz regionunda yüksək keyfiyyətli xidmətlər göstərməklə yol və dəmir yolu tikintisi sahəsində liderlik iddiasında olan bir şirkətdir. Şirkət əsas fəaliyyət dairəsi olan avtomobil və dəmir yolu tikintisində A-dan Z-yə bütün növ xidmətləri öz imkanları hesabına həyata keçirir.*

***Mətbuat üçün əlaqəli şəxs:***
**Kənan KƏRİMLİ,** İctimaiyyətlə Əlaqələr və Mətbuat Meneceri
**Tel.:** (+994 12) 447 70 03 (04)
**Mob.:** (+994 55) 208 20 87, (+994 50) 255 38 86
**E-mail**: k.karimli@azerinsaat.com
**www.azerinsaat.com**